# Dodaqdəyməz Qoşmalar



Əvəz Mahmud Lələdağ

### Ay ala-ala

Silahlı əsgərlər, igid əsgərlər,
Nadan səngərini ay ala, ala.
Əzəldən qeyrətli ərlər, ərənlər
Elin elyerini ay ala, ala.

Gələ yaylaqlara canan naz ilə,
**Ərəgnlər** əylənə nazlı qız ilə.
Aşıq sinəsində telli saz ilə
Elin kədərini ay ala, ala.

Yenə dağlar qızı dağlara çıxa,
Lalənin, nərgizin əlini sıxa,
Qeyrətsiz nakəsi yandıra-yaxa,
Dağların arını ay ala, ala.

Alça çiçək aça Səngər dağında,
Eşqi təzələnə Lələdağın da.
Aşiqlik eyləyə ahıl çağında,
Yaşıdı qarını ay ala, ala!

### Şəhid anası

Nə edək ki, dərdi-sərin azalsın,
Hicran səndən qisasını az alsın.
Adın-sanın tarixlərə yazılsın,
Dahilər anası, şəhid anası.

Qəddar yağı gəldi yarlı-yaraqlı,
Səni eylədilər sinəsi dağlı.
Gəzdin itiyini əli çıraqlı,
Dilin ağı dedi, igid anası.

Yadların qılıncı yeridi qana,
Nizələr sancıldı taqətsiz cana.
Nə qədər qəsd edər insan insana,
İçində yaşadı hər dərd, anası.

Ay ana, haqq hanı, ədalət hanı,
Cinayətkar hanı, cinayət hanı.
Səndən giley hanı, şikayət hanı,
Şikəstə dayaqsan, şikəst anası.

Lələdağ da sənin halına yandı,
Nadanlar, naşılar əhdini dandı.
Canilər nə desə, şərdi, yalandı,
Qeyrət anasısan, qeyrət anası.

### Yar

Qara çəkə qaranlığı, ağ gələ,
Çəkə səni lalə yanaq, ağ gilə.
İllər keçə, istədiyin sağ gələ
Əğyar qala çətin-çətin dərdə, yar.

İstəyirsən qılıncınla yar, yara,
Gərdiş əydi, həsrət qaldı yar yara.
Dağ çəkildi, dərinləşdi yar, yara.
Gərək gələ çarə edə dərdə yar.

Hicran dərdi əzdi səni Lələdağ,
Dərd yandırdı etdi səni lələdağ.
Səngiyəydi sinəndəki lələ, dağ,
Deyərdilər tər çiçəyi dərdi yar.

### İnsana

Çıx gədiyə şehli-şehli çiçək dər,
Yara çatsa, cana gələr çiçəklər.
Yaylaq yaşıl, kəhriz sərin, çiçək tər,
Tər çiçəyi nazlı yara atsana.

Qılıncınla qaya sındır, yar dərə,
Qar sinədən əzəl narı yar dərə.
Sən də çalış tər çiçəyi yar dərə,
İnsan istər çata yaxşı ad-sana.

Lələdağın içindədir yar, yara,
Şahdağından çiçək dərə yar yara.
Eşq əhlisən, yar dərdinə yar, yara,
Əzəldən yaraşır insan insana.

### Yaralı

Şahdağına yağış yağa, qar gələ,
Şər qarışa, qaş qarala yar gələ.
Qar sinədən yar əlinə nar gələ,
Dəyən narı sıxa, əzə yar əli.

Əğyar dərdə dərd qatırsa, çək dara,
Xar ləçəyə əl atırsa, çək dara.
Sar yanında yar yatırsa çək dara
Qəsd edəndən qisası da yar alar.

Lələdağın yandı eşqi, talandı,
Yar dərdindən ayrı dərd də yalandı.
Həsrət dağı sinələrdə qalandı,
İllər keçər, yarın qalar yaralı.

Yadın dəliliyi, dərdi, azarı,
Çəkdi dara neçə-neçə yazarı
Hey əridi gəlin arı, qız arı,
Qəddarlığa can atdılar naşılar.

Qalan gərək Lələdağın dərdinə,
Nadanların istəyi nə, dərdi nə.
Həyasızlar əl atdılar hər dinə,
Ağ çiçəyə qan atdılar naşılar.

### Yaza yar

Qış əridi, ellər çıxdı yaza, yar,
Gətir dilə sən də yazdan yaz, a yar.
Yar dərdini gizli-gizli yaza yar,
Acını da şirin deyə yar yara.

Dar ayaqda şərik çıxa dərdə yar,
Cəhd elə sən qılıncınla dərdi yar.



### Hər yana

Səhər-səhər gizli-gizli gələsən,
Eşq əhlisən, eşqilisən hələ sən.
Dağ çayı tək aşar-daşar tələsən,
Can deyəndə şirin gələr can cana.

Çalış şərdən kənara çək əlini,
Çıx gədiyə sən harayla elini.
Şirin elə şirin-şəkər dilini,
Şirin dildən ləzzət gəlir insana.

Şər qarışdı yar, Lələdağ hardasan,
Sinəsinə çəkildi dağ, hardasan.
Qaş qaraldı, yandı çıraq, hardasan,
Ah-naləsi, səsi çatdı hər yana.

### Nə deyək

Qaş qaraldı, Əyriqarı qar aldı,
Haqdan gəlir, haq işinə nə deyək.
Şər qarışdı, Leyliqaçan qaraldı,
Qarlı qışın gəlişinə nə deyək.

Halallığın ağasıdır halal kəs,
Dəstərxana gələn nanı halal kəs.
Halal qazan, halal şanı halal kəs,
Halal kəsin gərdişinə nə deyək.

Hər nə desən, yar dərdini yar alar,
Qılınc dəysə qar sinəni yaralar.
Sızıldayar sinəndəki yaralar
Yazla qışın yarışına nə deyək.

Yeddiqata asta-asta yağa qar,
Yaranışdan yaraşıqdır dağa qar.
Əriyə, sellənə seltək axa qar
Əyrilərin yerişinə nə deyək.

### Naşılar

Əllərində qılınc, qalxan, daş-kəsək,
Neçə yerə daş atdılar, naşılar.
İnsanlığı zindanlara saldılar,
Alçaqlığı yaşatdılar naşılar.

Qəsd etdilər canlar alan canana,
Şər dedilər el dərdini qanana.
Nələr çəkdin haqsızlıqdan, can, ana,
Yaraları qanatdılar naşılar.

Gərək yara yar dərdinə hər diyar,
İstəyirsən sən də dərdə yar, yara.

Lələdağın istəyi nə, dərdi nə,
Tanrı gəldi, çarə qıldı dərdinə.
Həyasızlar and içdilər hər dinə,
Şair sinəsindən aldı yar, yara.

### Gələr

Yarın əli yar əlinə dəyəndə,
Şadlıq, şadyanalıq araya gələr.
Əğrarın əliylə ara dəyəndə,
Haqqın elçiləri haraya gələr.

İlahi istəsə səni şad eylər,
Şirin xəyallarda hər an yad eylər.
Ağrını, acını yar, kasad eylər,
Qızılca, sarılaq hər aya gələr.

Yaşın gizli-gizli qarıdı, getdi,
Ayları, illəri arıdı, getdi.
Eşqinin taqəti əridi, getdi,
Ayrılan yenidən ta nəyə gələr.

Aşiq haqsızlıqdan hələ dardadı,
Gecə narahatdı, intizardadı,
Can deyən hardadı, canan hardadı,
Lələdağ arxanca yar, Aya gələr.

### Gələr

İstəsən sınağa çək sən də yarı,
Sınansın əzəli, əhdi, ilqarı.
Əgər dar ayağa çəksən də yarı,
Əyilsə, səninlə çətin tən gələr.

Sinəsində ellər gəzən dağ hanı,
Sinəndəki cadar-cadar dağ hanı.
Yaylağında şənləndiyin çaq hanı,
Saçlarına gizli-gizli dən gələr.

Allah yaradandı, ərgən də, qız da,
Dağlar cana gələr, dirilər yazda.
Yalda asta-asta dillənər saz da,
Sazın sədasına dağa çən gələr.

Aşiqi hər yanda axtarar yarı,
Arada incidər gic əğyar yarı.
Lələdağ zindandan çıxardar yarı,
Yar yarın yanında yatar, dincələr.